Mirzə M. Zəfər ordenli şəhid kapitan // Respublika. - 2023. - 31 may. - № 113. - S.
19.

2020-ci ilin sentyabrın 27-
dən başlayan Vətən müharibəsində şanlı ordumuz qəhrəmanlıq və igidlik göstərərə
k Vətən uğrunda şərəflə döyüşüb, öz adlarını Azərbaycanın tarixinə yazdılar. Düş
mənə layiq olduğu cavab məğlubedilməz ordumuzun yüksək döyüş əzmi ilə savaş
meydanında - Qarabağın ürəyi Şuşada verildi. İgid, qəhrəman oğullarımız son dam
la qanları, nəfəslərinədək savaşaraq düşməni diz çökdürdülər, şücaəti, mərdliyi ilə
dillərə dastan oldular.

44 günlük müharibənin ilk günündən Şuşaya qədər döyüş yolu keçib qəhrəmanımı
z. Kapitan rütbəli şəhidimiz Babayev Şamil Baloğlan oğlu Naxçıvan Muxtar Respu
blikasının Culfa rayonunun Camaldın kəndində doğulub. İlk təhsilini Camaldın kə
nd tam orta məktəbində aldıqdan sonra, 2005-
ci ildə hərbi xidmətə başlayıb. Xidməti müddətində Şamil Babayevin vətənə, torpa
ğa olan sevgisi daha da artıb və həyatını hərb sahəsinə həsr etməyi qərara alıb. Şam
ilin ilk xidmət yeri 2010-
cu ildə Daxili Qoşunların Xüsusi Təyinatlı dəstəsi olub. Hərbi sirləri dərindən öyrə
nmək və zabit olmaq üçün 2012-
ci ildə Daxili Qoşunların Ali Hərbi məktəbinə qəbul olub. 2014-
cü ildə buranı bitirdikdən sonra xüsusi təyinatlı dəstənin "Atəş Təminat Qrupu"nun
komandiri vəzifəsinə təyin edilib. Bununla da o, zabit kimi vətəninə şərəflə, ləyaq
ətlə xidmət etməyə başlayıb. 2018-ci ildən Türkiyədə xüsusi təlimlərə cəlb edilib.
2020-
ci ildə kapitan hərbi rütbəsi alıb. Türkiyədə və Azərbaycanda müxtəlif Fəxri fərma
nlar və "Qüsursuz Xidmətə görə" medalı ilə təltif edilib.

Qəhrəman zabit Füzuli, Hadrut və Şuşa istiqamətində gedən döyüşlərdə xüsusi şüc
aət göstərib. Füzuli istiqamətində döyüşərkən atəş təminat qrupu və onun komandir
i Şamil Babayev puskuya düşüblər. Zabitin döyüş yoldaşları qeyd edir ki, ətraf düş
mənlə əhatələndiyindən pusqudan çıxmaq çox çətin olub. Lakin peşəkar komandir
öz heyəti ilə birlikdə döyüşərək düşməni məhv edib, pusqunu dağıdıb. Komandir v
ə heyəti 5 gün keçilməz yolları qət edərək gizli meşə yolları ilə Şuşaya çatıb.

Noyabrın 5-
i Şuşa uğrunda döyüşlər başlayanda Azərbaycan ordusunun bölmələri müxtəlif qru
plara bölünərək şəhərə fərqli istiqamətlərdən hücuma keçiblər. Noyabrın 7-
də döyüş zamanı minamyotdan açılan atəş nəticəsində Şamil bir neçə yerdən yarala
nıb. Yoldaşları onu döyüşdən çıxarmaq istəsələr də, komandir heyətini tək qoymaq
istəməyib, yaralı halda döyüşə davam edib. Lakin aldığı yaralar ona Şuşanın azad
edilməyini görməyə imkan verməyib, Şamil şəhidlik zirvəsinə ucalıb. Noyabr ayını
n 13-
də qəhrəmanın nəşini Naxçıvan böyük izdihamla qarşılayıb. Şəhid Şamil Babayev

doğulub boya-
başa çatdığı Camaldın kəndində dəfn edilib. Ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Zəfər" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şamil Babayevin döyüş yoldaşlarından istədiyi yeganə arzusu olub: "Şəhid olsam, qəlbimin üstündə daşıdığım bayrağı məzarımda başımın altına qoyarsınız". Şəhidimizin bu arzusu yerinə yetirilib. Onun sevdalısı olduğu, uğrunda can verdiyi, üstündə daşıdığı bayrağı bu gün onun məzarı üzərindədir.

Doğma torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə canlarını Vətən uğrunda fəda edərək xalqımıza qələbə sevincini yaşadan şəhidlərimizin ruhu əbədi olaraq yaddaşlara həkk olunub və hər zaman minnətdarlıqla anılacaqdır.